ABBAS ABDULLA

# URUM KIRIM ARASI

ABBAS ABDULLA

# URUM KIRIM ARASI

Kırımlı kardeş
Tahir Kerime
sevgilerle

BAKI-2007

15.4.2008

A13

A13 **Abbas ABDULLA. Urum Kırım arası.** (Türklük və Türk dünyasına şeirlərindən seçmələr). Bakı, 2007. «3 saylı Bakı mətbəəsi» ASC. 58 səhifə.

A $\frac{030}{13\text{-}2007}$

İSBN 5-89968-124-1

Abbas bəy, sizin geniş diapazonlu yaradıcılığınız yalnız sənət dünyasının deyil Azərbaycan xalq hərəkatının da bir parçasıdır. Siz xalq hərəkatımızın çətin anlarından hər bir təqibə və təhlükəyə sinə gərərək Vətənin azadlığı və yüksəlişi yolunda bütün varlığınızla çarpışmağa hazır olduğunuzu göstərdiniz.

Nə yaxşı ki, bizim Türk dünyamızın Abbas Abdullası var.

*Əbülfəz Elçibəy*
*1990*

Əzizim Abbas bəy, mən sizi tanıyandan bütün mənalı həyatınızı Türk millətinin mədəniyyət və məfkurəsinin yaradıcı və yayıcı bir aydını, fədakarı kimi tanımışam. Sovet imperiyasını rədd edən, onun Türk basqılarına qarşı dirənişinizin şahidi olmuşam.

*Əbülfəz Elçibəy*
*2000*

İndiki zamanədə əlinə qələm alanlardan hansını dindirsən, onundan doqquzu deyəcək ki, mən türkçüyəm və elə anadan türkçü olmuşam. Belələrinin arasında o vaxtlar «türk» sözü eşidəndə rəngi qaçanlar da az deyil.

Abbas Abdulla gerçəkdən türkçüdür, indi də türkçüdür, qırx il bundan qabaq da türkçü idi. «Qırx il qabaq» deyirəm, çünki Abbasla qırx il bundan qabaq tanış və dost olmuşuq. Ancaq, şübhəsiz Abbasın türkçülüyünün «stajı» qırx ildən də artıqdır. Doğulub göz açdığı torpağın ab-havasında, körpəlikdən eşitdiyi dilin dadında-duzundadır bu türkçülük.

Türkçülük Türkiyəçilik deyil. Çağdaş, dost, əziz Türkiyəmizə nə qədər böyük məhəbbətimiz olsa da, türkçülük daha geniş anlayışdır. Azərbaycanda türkçülük ilk sırada həqiqi tariximizi azdırmamaq, onun əsil köklərinə qayıtmaq, ana dilimizi kimlərinsə zor gücünə

qəbul etdirdiyi lisan kimi deyil, əcdadlarımızın binədən danışdığı dil kimi qəbul etməkdir. Türkçülük türk xalqlarının ortaq mənəvi, tarixi və mədəni dəyərlərinə sadiq qalmaqla yanaşı ilk öncə azərbaycanlı, Azərbaycan türkü olduğumuzu unutmamaq deməkdir. Türkçülük türk xalqlarının birliyi, qardaşlığı olduğu kimi başqa xalqlara da dost gözüylə, xoşgörüylə, barışcı və dözümlü baxışla baxmaq deməkdir. Abbas Abdulla bütün bu anlamlarda da həqiqi türkçüdür.

*ANAR*
*2000*

Abbasla nasıl tanıştığımı sizə anlatamam, çünkü bən də biləmiyorum. Birdən-birə nasıl tanıştık? Nasıl kaynaştık birdən-birə? «Bənim Türk dostum, canım!» dedi, sarıldıydı bana. Ama nerdə? Onunla tanışkılığımız, dostluğumuz çok öncələrə, uzak yıllara dayanır-

yormuş gibi gəliyor bana. Birliktə doğmuş, birliktə büyümüsüz sanki. «Nazımın məmləkətindən..» diyor, «Bənim sevgili insanlarımın torpağından, insanlarından..» diyor, başka bir şey demiyor. Gür bir səsi var və də tatlı. Gözlərinin içi həp gülüyor, kalın gözlüklər altında. «İnsan kardeş olur, dost olur, olmaz kapını bağlamak, biz Türklərdə hiç olmaz. Türkün kapısında kilit olmamış, kardaş..» Abbas Abdulla nerdəysə ağlatacak bəni. Nazımı Baküda tanımış. «Tam bir erkək güzeliydi, diyor, boylu, boslu çox yahşi bir adamdı, bizim adamımızdı..» Bir dörtlük patlatıyor, sanki Nazim için söylemiş:

Azizim vatan yahşi,
Giyməyə kətan yahşi.
Gəzməyə gurbət ölkə,
Ölməyə vətən yahşi.

*A.Kadır*
*İstanbul*
*1978*

...Şair oldun, Abbas Abdulla! Dedin: «Türk oğlu Türkəm». Sən doğrudan da Türk oğlu Türksən. Türk sözü qadağan olunanda sən türkəm deyirdin. Türkün tarixini əzbər bilirdin. Dünənini, bu gününü, sabahını görürdün. «Ulduz»da və ya başqa qəzet-jurnallarda eyhamla dolu misralarında Türk doğulduğunla fəxr edirdin. İndi də fəxr edirsən. Sabah da fəxr edəcəksən.

*Fikrət Sadıq*
*2001*

Abbasın ruhundakı bu genişliyi və beynəlmiləlçiliyi görəndən sonra onun kökümüzə olan böyük marağını, şeir dilindəki ilkinliyi, Türk saflığını, Türk dünyasının böyüklüyündən gələn milli iftixarını daha aydın dərk edirsən.

*Sabir Rüstəmxanlı*
*1990*

Abbas Abdulla hələ sosialist rejimi yıxılmadan da türkcə və türkçülük üzərində böyük bir həssasiyyətlə duran və Türk dünyası üzərində oynanan bütün oyunları çox yaxşı bilən bir könül adamıdır.

*Yavuz Bülənt Bakilər*
*Ankara*
*2002*

Abbas Abdulla cana yaxın, mütavazi, dost, arkadaş canlı bir insandır. Onu tanıyıb da sevməmək, ona hörmət bəsləməmək mümkün deyil. Ölkə və ulus sevgisi onda son həddədir. Şeirlərində çevrəsindəki insanları, Azərbaycanı, bütünlüklə ulusunu qələmə almaqda, insanların acılarını və sevinclərini dilə gətirməkdədir. Ulus deyərkən, şübhəsiz Türk Ulusunu nəzərdə tuturam. Zira onun əlimdəki kitabında yer alan «Türkmən dastanı» Abbasdakı ulus sevgisinin parlaq nümunəsidir.

Yaxşı ki, sən varsan Abbas. Türk ulusu səninlə iftixar edir.

*İrfan Ünver Nəsrəddinoğlu*
*Ankara*
*1988*

Abbas Abdullada, bizim Türk qardaşımızda Şevçenko ocağının közü vardır.

*İvan Draç*
*Kiyev*
*1984*

Abbasın poeziyasında bütün görüm nöqtələri, bütün baxış bucaqları əvvəl-axır Vətəndən gəlib keçir. O, «Ukrayna naxışları»nda da bizim şairdir – uzağı yaxınlaşdırır – Ukrayna kobzası ilə Ələsgər sazını yanaşı dilləndirir. İlya Çavçavadzeyə həsr etdiyi poemada isə Gürcü – Azərbaycan dostluğunu, iki xalqın tarixindəki oxşar faciəli məqamları nəzərə çarpdırır. O ki qaldı «Türkiyə dəftəri»ndən olan şeirlərə. Bu poetik nümunələrdə Abbas Türkiyəyə hələ ge-

diş-gəlişin kütləviləşmədiyi çağlarda Türkdən Türk kimi danışmağı bacarırdı.

*Vaqif Yusifli*
*2002*

Abbas Abdullanın danışığında diqqətimi çəkən yeni kəlmələri ustalıqla və geniş ölçüdə işlətməsidir. O bu işi şüurlu olaraq edir. Türk birliyinin dil birliyi ilə gerçəkləşəcəyini israrla vurğulayır. Yazıları və şeirləri bu məqsədə xidmət edir. Onun bu cəhdini Gənc Qələmlərin «sadə dil» anlayışına bənzətdim öz içimdə... Onu gözümdə ilk təşəbbüsün ifadəsi olaraq bir Ömər Seyfəddin kimi gördüm. Türk dilinin sadələşmə sürəci Ömər Seyfəddinlə başlamış və bu sürəcin prinsipləri onun tərəfindən müəyyənləşdirilmişdirsə, Azərbaycan Türkü ilə Türkiyə Türkünün dillərinin qaynayıb-qarışması prosesində də Abbas Abdullanın bənzəri rol oynayacağına bütün qəlbimlə inanıram. Onun zamanla İstanbul şairləri arasında yer tutacağına kəsin bir gözlə baxıram.

...Abbas Abdulla son dövr Azərbaycan şeirinin öndə gələn isimləri arasında yer alır... Orijinal bir şairdir.

...Şeirlərində və yazılarında Azərbaycan türkcəsiylə Türkiyə türkcəsini birləşdirməyə çalışan şair doğmalaşma tərəfdarıdır.

*Hüseyn Tuncər*
*İzmir*
*1992*

Abbas Abdulla şeirlərini məmləkətinin diliylə yazır. Bu, Borçalıda danışılan Qarapapaq ləhcəsidir... Bu ləhcə Anadolu ləhcəsiylə Azərbaycan ləhcələrini bir-birinə bağlayan bir keçid bölgəsini təşkil edir. O son zamanlardakı Türkiyə səyahətlərinə bağlı olaraq bəzi şeirlərini özəlliklə Türkiyə türkcəsi ilə yazmışdır... Borçalı bölgəsi və burada yaşayan beş yüz mindən çox Qarapapaq türkü haqqında qısa bilgilər vermək, Abbas Abdullanın şeirlərini anlaya bilmək üçün gərəklidir.

Bu bölgədə yaşayan Türklər ta əski zamanlarda burada məskunlaşmış Saka və Hun türklərinin nəvələridir. Oğuzlar Azərbaycana gəlib Qafqaza yerləşdiklərində buralarda yerli Türklərlə qarşılaşmışlar. Qarapapaqlar Oğuzların qarşılaşdığı bu yerli türklərdəndir.

*Fatma Akpınar*
*İzmir*
*1996*

Çağdaş Türk poeziyasının görkəmli nümayəndəsi sevimli şairimiz Abbas Abdulla! ...Böyük Türk Dünyasının poeziya aləmində öz yeri, öz mövqeyi olan yurdsevər Azərbaycan övladının o qədər də asan olmayan şərəfli ömür yolu biz gənclər üçün bir örnək, bir məktəbdir.

*Galibə Gültəkin*
*Məhəmməd Hadi Ocağı*
*Ədəbi məclisinin rəhbəri*
*Naxçıvan şəhəri*

Abbas Abdulla Vətənin, xalqın milli-mənəvi dəyərlərini usanmaq bilmədən təbliğ edir. O sevgidən, məhəbbətdən, dostluqdan, ümumiyyətlə, nədən yazırsa yazsın hər bir yazısında ana motiv türkçülük sevgisidir.

...Türkiyəmizin dönməz dostu olan Abbas Abdullanın bu gün Azərbaycanımızda Vətən şüurunun formalaşıb müəyyənləşməsində halal əməyi var. Sabaha böyük ümid bəsləyir, iç dünyası yazıb-yaratmaq həvəsiylə doludur.

*Elman Mustafa*
*2000*

...Abbas bu gün bir Azərbaycana sığışmır. Və o, bütöv bir Türk dünyasının xəritəsini yaratmaq arzusu ilə yaşayır. Əslində bu xəritə yaranır, lakin ləng yaranır.

...Tale elə gətirdi ki, hələ universitet illərində türkçü olmağı ilə fəxr edən və bu yolda tənə alan Abbas Abdulla

müstəqil Azərbaycan Respublikasının Türkiyədə təmsilçisi, elçisi oldu, İstanbula konsul təyin olundu. Və neçə il Abbas bu məsul vəzifəni şərəflə yerinə yetirdi.

Bu sətirləri yaza-yaza ürək ağrısıyla onu da qeyd etmək istəyirəm ki, Abbas Abdulla bu gün türkçülüyünün və Musavatçı olmağının cəzasını çəkir...

*Ağəddin Mansurzadə*
*2000*

Pozulmaz ülküm bilin,
Dünyaya görküm bilin,
Bir kimsədən qorxum yox,
Türkoğlu Türküm bilin!

# TAPMACALI QARAQALPAQ NAĞILI

Bu Qaraqalpaq,
Bu Qarapapaq,
Bu Qarappaq,
Bu Qarabağ,
Bu Suhara.
Baxıram
    qalpaqlara,
        papaqlara,
            sulara,
                dağlara,
                    bağlara.
Hamısı qapqara.
Qara, qara, qara...
Bu qara nə demək?
Qara böyük demək.
Böyük qalpaq,
    böyük bağ,
        böyük su,
            böyük dağ...
Böyük, böyük, böyük...
Böyüklük də bir yük.

Qara daha nə demək?
Qara hirsli demək, acıklı demək.
Hirsli adam,
    acıqlı baş,
        dumanlı dağ,
        saralıb solan bağ,
            dəli su.
Elə bu?
Yox!
Qara yuxu,
qara qorxu,
qara daş...
Bir de neçə-neçə
    Bakılı
        Qazaxlı
            Nukuslu,
                Borçalı qara qaş.
Bir də,
Eyni atadan, anadan törəyən
Neçə-neçə
Oğuz, Qıpçaq qardaş.

Bu Qaraqalpaq nə demək?
Bu Qarapapaq nə demək?
Bu Qarabağ nə demək?
Bu Qarasu nə demək?
Bu Suhara nə demək?
Tapın görək.
Bulun görək.

# «TÜRKİYƏ DƏFTƏRİ»ndən

## ANKARA

### I

Bir dumanlı qış günündə
Ankarada
Köksümü açmışdım
Əsən rüzgara da.
Yağan qara da.
Belə gəzmə, canım.
Soyuq alarsan, dedin.
Amma bilmədin
Günəş doğmuşdu Anıttəpədə.
İçim isinirdi get-gedə.

### II

Ankarada
1984 Aralıkda
Heç bir şey yokdu ortalıqda.
Sevgi vardı.

Sayqı vardı,
Bir-birimizə qayğı vardı.
Bir də eyni dildə qonuşmanın
Bəxtiyarlığı vardı.

III

Yücətəpədə bir dost evində
Yox, canım, dost ellərdən olur.
Qardaş evində.
Bir axşam,
İçimdə bir ehtişam,
Bir cah-cəlal,
Qarşımda bir süfrə
Göyüzü kimi müqəddəs, qutsal,
Torpaq kimi bərəkətli.
Bir də sevdiyim insanlar.
Mələk təbiətli.

## IV

Məlikşah Əmrah
Ankaralı dəliqanlı,
Dost-qardaş canlı.
Səsi
Saz səsi qədər dadlı,
Gözləri
Alov-alov yanar, odlu.
Görüb-görməyəli
Xatırladım Ayxanımı.
İkisinə də qurban verərəm
Bu quru başımı, quru canımı.

## V

Bu sinnimdə bu qış günündə
Bu səbirsizlik haradan məndə,
Anlamam, babam!
Yarın ayrılıram Ankaradan.

*1984*

# İSTANBUL

Çox gözəl tanıyıram bu şəhəri,
Yalnız caddələrini, sokaklarını,
Yalnız Boğaziçini, Qarşıyakayı deyil,
Həm də gözəlim gözəl insanlarını,
Həm də ağıldan sakatlarını.
İki dəniz arasında İstanbul
Lövbər atmış bir gəmi.
Çox gözəl tanıyıram bu şəhəri
Çocuq ana-babasını tanıyan kimi.

*1985*

# KONYA

*Cəlaləddin Rumi Həzrətlərinə*

Sənə vardım Mövlanə!
İçimdə dünyaca şübhəm, quşqum,
Gah hakqın.
Gah nahakqın ardınca qoşdum.
Varlığımda yoxluq yaşamada,
Yoxluğumda varlıq.
Xoşbəxtliyimdə bədbəxtlik,
Bədbəxtliyimdə bəxtiyarlıq...
Yardım et mənə,
Bu ikilikdən qurtulum:
«Ya olduğum kimi görünüm,
Ya göründüm kimi olum».

*1985*

# İZMİR – 1988

*İzmirli şərqiçi Maraş*
*Nacaroğluya sevgilərlə*

Mən İzmirdə, İzmir məndə.
Axşam gözəl, səhər gözəl.
Egeden rüzgar əsəndə
Duyduğum həp səslər gözəl.

Bu yerdən vaz keçmə, sakın!
İnsanları cana yaxın.
Dəstə-dəstə, axın-axın
Alagöz gözəllər gözəl.

Qucağında hər mutluluq,
Göy mutluluq, yer mutluluq.
Yaşamağım bir mutluluq.
Ölməyə də bu yer gözəl.

Pinarbaşım, Narlı Dərəm,
Torpağına üzüm sürəm…
Bir görmüşəm, bir də görəm,
Bu Baxçalı Evlər gözəl.

Ucalmışam, enməliyəm,
Alov idim, sönməliyəm,
Gəldim, gördüm, dönməliyəm,
Gözdən axan sellər gözəl.

*12 sentyabr, 1988*

# İZMİR – MART 1990

*Ali Yavuz Akpınara sevgilərlə*

Göz önümdə şəhidlər
Qalıbdı sağlar kimi.
Yer dözər göy inildər
Ağlaram ağlar kimi.

Əli Yavuz Akpınar,
Dünya bizdən nə umar?
Dərd üstünə dərd sunar
Dərdim var dağlar kimi.

Bəxtimiz qaralandı,
Bakımız yaralandı,
Məzarlar sıralandı
Köksündə dağlar kimi.

Hər addımda bir ölüm
Ərşə dayandı zülüm.
Qan ağlayan Göy Gölüm
İçimdə çağlar kimi.

Bildim yalqız deyiləm,
Gəldim dərdimi deyəm.
İlk bahara təşnəyəm
Viranə bağlar kimi.

# ŞAŞIRMA!

*Bir gün Qərbi Almaniyanın Bilefeld şəhərindən Aşıq Şenliyin nəvəsi Aşıq Yılmazın göndərdiyi bir maqnitafon lentini aldım. Lentdən onun səsini eşitdim. Bir qədər əvvəl telefon danışığımızdan həyəcanlanmış, bir şeir söyləmiş... «Şaşırdım» rədifli bu şeiri öz sazını çalaraq həsrətli bir səslə oxuyur...*

Nədən böylə şaşırmısan, Yılmazım,
Bu dünyanın gərdişinə şaşırma
Qoca dünya bir yamanlıq yuvası,
Hər sözünə, hər işinə şaşırma.

Qovqasında ötüb keçən çağların
Ölən öldü, üzün görək sağların.
Sizin olan, bizim olan dağların
Yoxuşuna, enişinə şaşırma.

Qan qardaşın sənsiz nasıl var oldu? –
Süfrələrdə sormuq kimi soruldu.
Yad ellərdə gəzib-gəzib yoruldu,
Yürüşünə, yerişinə şaşırma.

Bu dünyanın harayı var, hayı var,
Hər kişinin bircə ömür payı var.
Həsrətimin yıldızı var, ayı var,
Vüsalımın günəşinə şaşırma.

Yer üzündə bir Türk oğlu dindimi,
Xatırlaram keçmişimi, indimi,
Kəndi odum böylə yaxır kəndimi,
Ürəyimin atəşinə şaşırma.

Gəl soruşma bu Abbasın dərdi nə?
Ömrü boyu qəm əkib də, dərdi nə?
Səsin gəldi, dərd calandı dərdinə,
Qəmli-qəmli dinişinə şaşırma.

*Aprel, 1987*

# MELANXOLİ

***Haydı, Abbas, vakıt tamam,***
***Akşam diyordun istə oldu akşam.***
*Cahid Sıtkı Tarancı*

Bir ormanda göz açmışam
Bu dünyaya, arkadaşım.
Fəda olsun torpağıma
Açıq alnım, qara qaşım.
Sizə doğru bir daş atsam
Öz başıma düşər daşım.
Anlayanda günahımı
Sellər kimi axar yaşım,
Halal-hümmət süfrəm üstə
Zəhər olar dadlı aşım,
Bax böyləcə yer üzündə
Dərd qonağım, qəm sirdaşım.
- Haydı – dedin, hara gedim,
Vətənsiz bir vətəndaşım.

De, haraya haylayırsan
Kəm taleyi, qara baxtı?
Gündüz gəzib yorulubdu,
Qoy uyusun axşam vaxtı.
Ötən aylar, ötən illər
Məngənətək onu sıxdı.
Ormanda bir palıd idi,
Rüzgar əsdi, tufan yıxdı.
Yatıb dadlı röya gördü,
Röyası da yalan çıxdı.
- Vakıt! – deyib dəymə ona.
Dəymə ona, Cahid Sıtkı!
Yazıq Abbas bu dünyadan
Vallah bıktı, billah bıktı…

*Mart, 1987*

# TÜRKMƏN DASTANI

*Türkmənistanlı şair və alim*
*Nazar Gullayev bir məktubunda*
*«Nəsimi Türkməndir, nədən siz*
*ona sahib çıxırsınız» yazmışdı.*
*Şeiri ona cavab olaraq, həm də*
*Türkmənlərə sevgilərlə yazdım.*

Nazar dostum, yazar dostum, qəm yemə.
Sevinc sənin, qəm mənimdir, qəm mənim.
Ulusumun nəyi varsa əzəldən
Həm sənindir, həm mənimdir, həm mənim.

Parçalama Türkmənin soyunu,
Uzun sürür bu dünyanın oyunu.
Gəl bir içək bir bulağın suyunu
Çox sənindir, kəm mənimdir, kəm mənim.

Sən ağlasan göz yaşını silərəm,
Mən ağlasam səni həmdəm bilərəm,
Ölsən ölləm, gülsən gülüb deyərəm:
Dövran sənin, dəm mənimdir, dəm mənim.

Göy ürgəmdir dağlarında yürüyən,
Yəhərində göy Oğuzdur, göy ərən.
Novruz günü süfrən üstə göyərən
Səmənindir, səmənimdir, səmənim.

Qulağında Nəsiminin səsimi?
Məhdimqulu mənim olsun bəsimmi!?
Yabançılar yemimizi yesinmi?
Yem səninndir, yem mənimdir, yem mənim.

Taşoquzum, Dağoquzum bir olub.
Süfrəmdəki çörək-duzum bir olub.
Bu birliyim çoxlarına sirr olub...
Mən səninəm, sən mənimsən, sən mənim.

Ağır yükü durma qoşa daşıyaq,
Dünya sənə görünməsin baş-ayaq,
Zəmimiz bir, əkək, biçək, yaşayaq,
Torpaq sənin, dən mənimdirp, dən mənim.

Qara gaşlı, ala gözlü gözəllər
Toy-düyündə ceyran kimi süzərlər,
Altın üzük, düz barmaqlar, düz əllər,
Sənəmindir, sənəmimdir, sənəmim.

Ellərimiz say gəlməz dahili,
Bilən bilir, heç dindirmə cahili!
Göy Xəzərin qızıl qumlu sahili
Çəmənindir, çəmənimdir, çəmənim.

Abbas bağban, qöy gül açsın dost bağı,
Dalğalansın qardaşlığın bayrağı,
Türkmənistan, Azərbaycan torpağı
Kəfənindir, kəfənimdir, kəfənim.

*1985*

# TÜRKİYƏDƏN QOŞMALAR ÇƏLƏNGİ

## I

## OZAN ƏFƏNDİM

***Dad sənin əlindən, a qanlı fələk,***
***Qardaşı qardaşa düşman elədin.***

*(Bu sözləri bilməm Səbri Şimşəkoğlunummu, Murat Çobanoğlunummu səsindən, oxumasından eşitdim. Oxuyanı unutdum, amma sözləri unuda bilmədim.)*

Qardaş da qardaşa düşman olurmu
Əfəndi ozanım, ozan əfəndim.
Bir zaman gəlir də peşman olurmu
Bu qara yazıyı yazan, əfəndim.

Sirrimi verməyə sirdaş aradım,
Qardaşım yanımda qardaş aradım,
Bulmadım başıma bir daş aradım,
Nə yapsın yolunu azan, əfəndim.

Alovlar içində ömür sürmüşəm,
Yerdən kipriyimlə od götürmüşəm.
İçimi göynədən bir duş görmüşəm
Bulunmaz duşumu yozan, əfəndim.

Yolları qapalı bir baca dünya,
Sorğusu cavabsız bulmaca dünya.
Çarxı pozulası bu qoca dünya
Əzəldən qaynayan qazan, əfəndim.

Həsrətim canımı üzəcək bir gün,
Elim Abbas deyib gəzəcək bir gün.
İnşallah yenidən düzəcək bir gün
Bizim səfimizi pozan, əfəndim.

## II

## SIĞINDIM

Bizim səfimizi pozan, əfəndim,
Haqq olub yenə də haqqa sığındım.
Məğribdən məşriqə bir nur ələndim,
Xalqım nur qaynağı, xalqa sığındım.

Mən günəş, ay, ulduz gecə-gündüzə,
Ormanam dağlara, çəmənəm düzə,
Suyam, Ağdənizə, Qaradənizə
İçimdə bir tufan, dalğa sığındım.

Ovlanan da mənəm, ovlayan da mən,
Qovlanan da mənəm, qovlayan da mən,
Bir elə, bir dilə fark qoyan da mən,
Arada olmayan farka sığındım.

Qorxmam ki, taleyim qıldan asılı,
Bu tale alnıma Haqqdan yazılı,
Günəşəm məzarım Qərbdə qazılı,
Özüm Şakrda doğub Şarka sığındım.

Abbasın canında canı qalıbsa,
Dönməz öz yolundan min yol çapılsa,
Bir gün sığınmaya haqq yol tapılsa
Ey vətən , bu yolu salqa* sığındım.

---

* Göstər. Vətən sən göstərdiyin yola sığındım

## III

## NƏFƏSİM GƏLİR

Ey Vətən, haqq yolu salqa, sığındım,
Deyib də dünyadan gedəsim gəlir.
Göyərib, cücərib torpaq altında
Torpağın üstündə bitəsim gəlir.

Mövlam əmr etsin də torpaq yarılsın,
Qara kəfən kimi mənə sarılsın,
Xatalar işləyən əlim qırılsın,
Əlimlə özümü didəsim gəlir.

Zəhərə döndərib dadlı aşımı,
Daşlara vururam dərdli başımı,
Qoşub kotanımı, alıb xışımı
İçimi, dışımı əkəsim gəlir.

Düşüb aramıza bir dürlü bölgü,
Millətim çaşıbdı, pozulub ülkü.
Gənclikdə altından çıxdığım yükü
İxtiyar çağımda çəkəsim gəlir.

Abbasam, yoluma göz dikib elim,
İraq düşmüşlərə yetməyir əlim.
Dodaq kilidlənib, quruyub dilim,
Çox da ki canlıyam, nəfəsim gəlir.

## IV

## BİLMƏM SUÇUMU

Çox da ki canlıyam nəfəsim gəlir,
Nəfəsin getməsi bir su içimi.
O qanlı fələyin qurusun əli,
Kəsib taqətimi, alıb gücümü.

Bir irmaq başında quruyan ağac
Sağalmaz dərdinə arayır ilac.
O mənə möhtacdır, mən ona möhtac,
Bir az kölgəsində alım dincimi.

Çilələr çəkmədə bu qərib başım,
Bilməm ki insanam, yoxsa bir daşam.
Barxanam yüklənib yolda qalmışam,
Qoyun, yavaş-yavaş çəkim köçümü.

Azdırır yolundan azanlar məni,
Gündə bir kəndirdən asanlar məni.
Bu qansız, amansız insanlar məni
Nədən incidirlər, bilməm suçumu.

Abbas Abdullayam, Hacaloğluyam,
Qəm-kədər udmuşam, dərdlə doluyam,
Sormayın nəfəsi nədən odluyam,
Bir sirr alov-alov yaxır içimi.

V

## DEYİLMƏZ

Bir sirr alov-alov yaxır içimi,
Düşməni güldürür, dosta deyilməz.
Bəd xəbər üstündən bəd xəbər kimi
Toyda qəm gətirər, yasda deyilməz.

İki həsrətlinin yolu bir çərək,
- Nədən bəkləyirsən, gəl qovuş görək, -
Söyləsəm, var səslə hayqıram gərək,
Söyləməm, böylə söz asta deyilməz.

Dilim var, lal kimi susan olmuşam,
Dəryalar içində suzan olmuşam,
Dərd çəkib, qəm yeyib, ozan olmuşam
Bu dərdim, bu qəmim sazda deyilməz.

Kimsəm yox küsməyə, dünyadan küsdüm,
Aydın zülmət oldu, əlimi üzdüm,
Dadlıca bir nağıl söylədi dosdum,
Qışda dilə gəlməz, yazda deyilməz.

Abbas Abdullanın payına düşən
Baxçalar veranə, tarlalar köşən,
İçi zədən-zədən, dışı gülər, şən
Bu türlü xəstəyə xəstə deyilməz.

*1988*

# MƏFKURƏ ABLA

*Bolqarıstan Türkü Rza Mollovun eşi, Türk şairi. Rza Mollov Bulqarıstan həbsxanasında kommunistlər tərəfindən döyülə-döyülə öldürülmüşdür. Daha öncə hər ikisi evimdə müsafirim olmuşdur.*

...Və yalnız indi inandım
Məfkurə abla!
Göydə Tanrının varlığına,
Yerdə insanın yoxluğuna,
Özünə insan deyən çox olsa da.

...Və yalnız indi anladım,
Məfkurə abla!
Rza abinin on il öncə
Bakıda dinləyib aşığın sazını
Çocuq kimi ağlamasını.

...Və yalnız indi gördüm
Məfkurə abla!
Yer üzündə qorxulu,
Böcək, soğulcan insanları
Nəfəsləri ölüm qoxulu.

...Və yalnız indi bildim,
Məfkurə abla!
Qanla gələn gedər canla,
Ana dili də,
Milli mənsubluq da.

...Və yalnız indi xatırladım
Məfkurə abla!
Rza abinin
Ürəyinə sancılan ağrıları,
Mübarək nurlu üzünü
Qəmdən saralmış sapsarı.

...Və səni xatırladım
Məfkurə abla!
Dərdli, sitəmli,
Dodaqları kilidlənmiş,
Gözləri nəmli.
Dərd əyməyəni
Tanrı əyməz demişlər.
Döz, tabla
bu dərdə
Məfkurə abla...

# BAKIDAN MƏKTUB

*Bu şeiri mənə şeirlə məktub yazmış qəzetəçi-yazar dostum Aydil Erol bəyə və bütün dünya Türklərinə sevgilərlə, ulu dədəmiz Yunus İmrəyə fatihələrlə yazdım.*

Köksü dağlı, bu dağlardan
O, dağlara səlam olsun.
İgidlərdən, koçaklardan
Koçaklara səlam olsun.

Ulu türkdür ulum deyən,
Türküm Türkə qulum deyən,
Millət yolu yolum deyən
Dosta, yara səlam olsun.

Can verirkən hər kahraman
Vatan yapır torpağı kan.
Dil savunan, din savunan
Kayratlara səlam olsun.

Geç kalmışdık, getdik hızlı,
Şəhid verdik oğul, qızlı.
Yer üzündə Ay-yıldızlı
Bayraklara səlam olsun.

Türk yurtları ölü leşmi?
Yetən didir, bu da işmi?
Dədələrə bizlər eşmi?
Atalara səlam olsun.

Türk övladı, Türkü tanı,
Yücəlt, koru, sev'Vatanı!
Yurt uğruna savaş çanı
Çalanlara səlam olsun.

Bən bir Abbas Abdullahım,
İçimdədir sızım, ahım.
Sana vardım bir Allahım,
Kalanlara səlam olsun.

*28.01.1992*

# BAYBURTA XİTAB

Yollar keçib uzun-uzun gəldim sana,
Vətən məhzun, mən də məhzun gəldim sana.
Mənə həmdəm oğlun, qızın gəldim sana,
Çal qopuzu, qəhrəmanlıq marşı oxut.
Uyuyanı, oyandırsın səsin, Bayburt.

Qarabağda bülbüllərim ötməz olub,
Millətimin çiləlari bitməz olub,
Türk əsgəri Türk yurduna getməz olub,
Vətən olsa dosta məzar, düşmənə yurt,
De sən nəsin, de sən nəsin, nəsin, Bayburt.

Türk ulusu əsir olmaz demiş Öndər[1],
Əsir Türkü qurtarmağa Türkü göndər,
İnam göndər, iman göndər, ülkü göndər,
Soydaşıyın, qardaşıyın əlindən tut,
Görənlər də bərəkallah desin, Bayburt.

[1] Böyük öndər, Atatürk nəzərdə tutulur.

Bir qardaşın bir qardaşa elçisi mən,
Bir torpağın yaralanmış bəkçisi mən,
Millətimin susdurulmuş haqq səsi mən,
Nədən susur bu dağlarda nədən Bozqurt?
Bu soruya bir cavab ver kəsin, Bayburt.

Hacaloğlu ozan Abbas Abdullahım,
Zəfər günü açılacaq hür sabahım,
Göstər bizə o günləri, ey Allahım,
Boy boylasın, soy soylasın Dədəm Qorqud
Qarabağın şöləninə getsin Bayburt.[2]

[2] Şeir 1995-ci ildə Türkiyənin Bayburt şəhərində keçirilən «Dədə Qorqud günləri»ndə yazılmışdır.

# İSTANBULDAN VAQİF SƏMƏDOĞLUNA MƏKTUBLAR

*Bir gün İstanbulda Vaqif Səmədoğlunun «Mən burdayam, ilahi» kitabını gətirdilər mənə. Kitabda səmimi bir avtoqraf vardı. Avtoqrafda deyilir: «Dostum, qardaşım, şairim, eloğlum Abbas Abdullaya dərin hörmət və sönməz, tükənməz məhəbbətlə.*

*Vaqif Səmədoğlu*
*7.XI.1996*
*Bakı»*

Bu anda,
İstanbulda
Gecə saat ikidi,
Bakıda sabah saat dört.
Uyqum ərşə çəkilib,
Dərd əskidi,
Əskidi dərd –
Bakıda səni uyutmaz
İstanbulda məni.

Tanrı yenməz deyiblər –
Dərd yenməyəni.
Dərdə yenilməmək üçün
Həmdərd aradım,
«Mən burdayam» dedin.
Şeirlərini dinlədim,
Dərd üstünə dərd gəldi,
Gözlərim önünə
Gələni övən,
Gedəni söyən
Neçə-neçə namərd gəldi.

II

Səninlə savaşaraq
Keçirəcəm bu gecəni.
Allahı sevirsən
Unut olub-keçəni:
Lenin meydanını
Azadlıq meydanına
Çevirdiyimiz günləri unut,
«Ya azadlıq, ya ölüm»
Hayqıran könülləri unut,

20 yanvarda
Tankların üstünə
Daşla-kəsəklə gedənləri unut,
Bakının zülmət gecələrində
Özlərini məşəl edənləri unut,
Ağdamı,
Şuşanı,
Xankəndini,
Kəlbəcəri, Laçını, Zəngilanı,
Əskiparanı unut.
Bənzə çevrəndəki
Dosta-yoldaşa,
Onlar kimi yaşa.
Unut, unuda bilsən.
Yaşa, yaşaya bilsən.

III

Təpədən dırnağa
Dərd olan dostum,
Ürəyi pambıqdan yumşaq
Poladdan sərt olan dostum.
Bir zamanlar bir şeirimdə

- Yer üzündə məzarıma
Yer bulunmayacaq, - demişdim.
Göy üzündə –
Tanrının ovcu içində
Kömülmək istəmişdim.
Tanrı da üz çevirdi bizdən.
İndi Azərbaycanda mənə
Bir məzarlıq torpaq qoru.
Bir kəfənlik bayraq.

## IV

Bir zamanlar
Gəzməyi çox sevərdin.
Dərbənddən Qazağa,
Bakıdan Şəkiyə,
Şəkidən Kələkiyə
Dolaşardın, gəzərdin.
İndi gəzməyə vaxt nerdə.
Ömür keçir növbələrdə.
Əppək növbəsi, su növbəsi,
Bir ömür alır hərəsi.
Sənin növbən əppək növbəsi deyil.

Sənin qovğan əppək qovğası deyil.
Qovğan başqa bir qovğa,
Növbən başqa bir növbə.
Boş vaxtın olsa belə
Nə Şəkiyə get,
Nə Kələkiyə,
Otur Bakıda
Növbəni bəkləyə-bəkləyə.
Növbəyə «quyruq» deyir
Anadolu Türkləri.
Bizlər də deyirik
Düşəndə yeri:
«Dünyanın quyruğu uzun».
Bu uzun quyruqda
Bitməsini bəkləyirik
Ömür yolumuzun.
Bu uzun quyruğun
Harasındasan, qardaşım, bilməm.
Növbən nə vaxt çatacaq.
Bu uzun quyruqda,
Özündən öndə
Mənə də bir yer bul ancaq.

# V

Dəli olmaq istədi
Onsuz da dəli qardaş.
Dəli olmaq zor işdi,
Bunu bilməli qardaş.

Ömür atlı, o yaya,
Günləri saya-saya.
Baxar, baxar dünyaya
Ağlar, gülməli qardaş.

Gülmək istər güləməz,
Haqdan heç nə diləməz,
Ölmək istər öləməz,
Bir gün ölməli qardaş.

## VI

Soyuducunun içində
Donanı gördünüz,
Yananı gördünüzmü heç.
Susuzluqdan
Cadar-cadar torpaq üstündə
Yürüyür
Qatar-qatar balıq adamlar.
Susuzluqdan
Cadar-cadar olmuş bu torpaq
Vətən torpağı –
Buz kimi soyuq.
İçi oyuq-oyuq buz dolabı – soyuducu,
Bu soyuducuda balıq adamlar.
Bu balıq adamlar arasında,
Bu soyuducuda.
Bir şair qəlbinin yarasında,
Gözlərinin qarasında
Alov-alov atəş.
Kəndi oduna yanar kəndi.
İsitmək üçün
Neçə-neçə köyü,
Neçə-neçə kəndi.

*27.02. – 03.03.1997*

# URUM – KIRIM ARASI

*Qoynunda boya-başa çatdığım Kəpənəkçidə bir şəxsin məşhurluğunu bildirmək üçün «Onu Urum Kırım arası tanıyırlar» deyərlər. Rəhmətlik anam «Ay oğul, dərdim Urum Kırım arası bəlli» deyərdi.*

Köksünə dağ çəkilən,
Məzarları əkilən
Obaları gördünmü?
Əli silahlı,
Dili Allahlı
Allahsız yağıları gördünmü?
Doğulmadan ana bətnində ölən,
Yad torpaqlara kömülən
Çağaları gördünmü?
Bir vaxt yurda çəpər olan,
Döyüşlərdə sipər olan,
Sonra dönüb nökərinə nökər olan
Ağaları gördünmü?
Yanıb-yanıb kül olan,

Külündən alov doğan
Anaları gördünmü?
Sahibsiz qalan köhlən atları,
Bu atları minmək istəyən cəlladları,
Sürgündəki ataların
Gözlərinə tuşlanan
Kalaşnikov avtomatları,
Adı dəyişdirilən obalara verilən
Əcnəbi adları.
Qürbət ellərdə dünyaya göz açıb,
Ana yurda dönmək istəyən övladları
Gördünmü,
Söylə:
Burası
Urum Kırım arası.

# İSTANBULLU NƏVƏM TÜRKAYA BAKIDAN MƏKTUB

İstanbulda sən varsan –
Mən varam.
Bakıda mən varam –
Sən varsan.
Şəklini asmışam kipriklərimdən,
Gözlərimdə sən gülərsən,
Sən ağlarsan.
Günlərdən bir gün,
Bir nağıl oxuyursan,
Ya da anandan eşidib-duyarsan:
Biri varmış,
Biri yoxmuş,
Türkayın bir dədəsi varmış.
Dədə bir gün,
İstanbuldan Bakıya varmış,
Özüylə bir ömür həsrət aparmış.
Və o gedən getmiş
Türkayın həsrətiylə
Canını fəda etmiş.

*26.08.1998*

# VAY HALINA

Türkə düşman olanların
Vay halına, vay halına.
Sonra peşman olanların
Vay halına, vay halına.

Yağılara əyilənin,
Əcnəbiyə gəl deyənin,
Gəvəzənin, hərgələnin
Vay halına, vay halına.

Sata-sata satılanın,
Düşmanlara qatılanın,
Sonra çölə atılanın,
Vay halına, vay halına.

Taxtdan enib taxta çıxan,
Bir ev yapıb, bin ev yıxan,
Əlimdədir sənin yaxan,
Vay halına, vay halına.

*1993*

# İÇİNDƏKİLƏR

Qələm dostlarının Abbas Abdulla haqqında fikirləri .......... 3
Pozulmaz ülküm .......... 14
Tapmacalı Qaraqalpaq nağılı .......... 15
*Türkiyə dəftərindən* .......... 18
Ankara .......... 18
İstanbul .......... 21
Konya .......... 22
İzmir – 1998 .......... 23
İzmir-Mart 1990 .......... 25
Şaşırma .......... 26
Melanxoli .......... 28
Türkmən dastanı .......... 30
*Türkiyədən qoşmalar çələngi* .......... 33
Ozan əfəndim .......... 33

Sığındım ........................................ 34
Nəfəsim gəlir ........................................ 36
Bilməm suçumu ........................................ 37
Deyilməz ........................................ 38
Məfkurə abla ........................................ 40
Bakıdan məktub ........................................ 42
Bayburta xitab ........................................ 44
İstanbuldan Vaqif Səmədoğluna
məktublar ........................................ 46
Urum-Kırım arası ........................................ 53
***İstanbullu nəvəm Türkaya*** ........................................ 55
Bakıdan məktub ........................................ 55
Vay halına ........................................ 56

*Redaktor:* *M.Vəliyeva*

*Korrektor:* *M.Vəliyeva*

*Kömpüter işi:* *İ.Kərəmətov*

Ofset kağızı. Formatı 70x90 $^{1}/_{32}$.
Fiziki ç.v. 1.8. Tiraj 500. Sifariş 79.

«Vətən» nəşriyyatının qrifi ilə
«3 saylı Bakı mətbəəsi» ASC-də
çap olunmuşdur.